# HARMONİK BİR BÜTÖVLÜK

## *Potensial sintaksisdən aktual sintaksisə doğru...*

Sintaksis dilçilik tədqiqatlarının son dərəcə perspektivli sahələrindəndir. Sintaksis sahəsində yaradıcı başlanğıcın ən az ifadə olunduğu yalnız təəccüb doğurur. Kamal Abdulla bu "təəccübü" vaxtında gördüyü üçün "car çəkir ki" sintaktik sahələrlə bağlı araşdırmaları bir qədər də genişləndirmək lazımdır. Bununla bağlı, öncə, sintaksislə həmhüdud sahələrin getdikcə daha geniş çevrəsinin əhatə olunduğu nəzərə çarpır. Fikrimizcə, həmin istiqamətdə ən intensiv araşdırmalar sintaksislə üslubiyyatın qovuşuğunda aparılıb" (Абдуллайев К.М. Теоретическийе проблемы синтаксиса азербайджанского йазыка. Дис., доктор. Филол. Наук. Баку, 1984).

K.Abdullanın filologiya elminin əksər sahələrini əhatə edən əsərləri var. Konkret olaraq biz alimin dilçilik elminə dair əsərlərinin adlarını oxuculara təqdim edirik:

1. Azərbaycan dilində sadə cümlə sintaksisinin nəzəri problemləri. (Проблемы синтаксиса простого предложенийа в азербайджанском йазыке. Бакы, Елм, 1983).
2. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, Maarif, 1999.
3. Azərbaycanda rus dili. Prof. İlyas Həmidovla birlikdə. Bakı, 2005.
4. Dilçiliyə səyahət və yaxud dilçi olmayanlar üçün dilçilik. Bakı, 2010.
5. Azərbaycan dilində mürəkkəb sintaktik bütövlər (ortaqlı)... Bakı, "Mütərcim", 2012.
6. Azərbaycanca danışaq. Paris, 2008, Buxarest, 2010, Abu-Dabi 2012.
7. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı, "Maarif", 1998.

Onun fikrincə, mətn bir dünyadır. Mətn dünyanı dərketmə modelidir. K.Abdulla dünyanı (dərketməni) bir mətn kəsiyi kimi qəbul və analiz edir. Onun müxtəlif sintaktik vahidlərdən qurulmuş, mühüm fikirləri ifadə edən sitatları: "Şairlər Allahla insan arasında sonuncu ünsiyyət vasitələrindəndir".

K.Abdulla "Azərbaycan dili sintaksisin nəzəri problemləri" kitabında məxsusi görüşlərini üç möhtəşəm sintaktik vahidin - sadə cümlənin, mürəkkəb cümlənin və MSB (mürəkkəb sintaktik bütövün) nə deməkliyini, nitq aktında bunların mövqeyinin nədən ibarət olduğunu ortaya çıxarmaq aspekti üzərində qurur. Onları bir-birilə bağlayan izomorfizm prinsipinə əsasən, bu vahidlərə bütöv bir sintaktik baxış müəyyənləşdirir və sərgiləyir.

Bu əsər müasir ədəbi dilimizin sintaktik strukturuna yeni bir hadisə və yanaşmadır. Kamal Abdullanın 1985-ci ildə çap olunmuş "Müəllif-əsər-oxucu" kitabında sintaksis məsələləri də konseptual həllini tapa bilmişdir.

İnsafən demək lazımdır ki, sintaktik strukturlar səviyyəsində Azərbaycan dili poetik sintaksisi Kamal Abdulla tərəfindən ciddi planda öyrənilmişdir.

K.Abdulla poetik sintaksis sahəsində görkəmli alimlərin fikirlərinin tərəfdarı kimi çıxış edərək göstərir ki, bədii informasiyanın ötürülməsi və dünyanın bədii dil modelinin, dil xəritəsinin formalaşdırılması prosesində sintaksis həlledici rol oynayır. Bədii informasiyanın təbiətinin sintaktik vahidlərin mürəkkəb struktur və çevrilməsini təyin etdiyi kimi, poetik-ekspressiv sintaksis də fonetik, morfoloji və leksik elementlərin quruluşunu şərtləndirir.

Aktual üzvlənmə və mətn məsələsi sintaksisin ən mühüm problemlərindəndir. Sözügedən problem sintaktik strukturu bütöv biçimdə əhatə edir və adama elə gəlir ki, dilin ünsiyyət imkanları, dil və nitq arasında var olan sintaqmatik və paradiqmatik münasibətlər düzgün öyrənilərsə, müasir türk dillərinin, o cümlədən Azərbaycan dilinin sintaksisi tamamilə yenidən işlənmiş olar.

Azərbaycan dilinin potensial sintaksisindən kənara çıxan dilçilərdən biri də Kamal Abdulladır. O, supr[illegible]k səviyyəni də, aktual səviyy[illegible]ə həm tədqiqatlarında, həm də tədris et[illegible] tələbə və magistrlərinə öyrətməyə daim can atmış, meyil göstərmiş və bu sahələrdə mühüm uğurlar qazanmışdır. Bu səviyyələrin əsaslı şəkildə öyrənilməsi müxtəlif dilçilərimiz tərəfindən də vacib bilinmişdir, ona görə ki, yalnız bu yolla Azərbaycan dilinin kommunikativ sintaksisini (bizdə dilimizin kommunikativ sintaksisi əməlli-başlı öyrənilməmişdir) digər ünsiyyət imkanlarını, dialoji və monoloji nitqin nədən yaranma və bu və ya başqa biçimdə formalaşdığı açıla və aydınlaşdırıla bilər.

MSB-nin irimiqyaslı təhlili Kamal Abdullanın özü və ətrafında məktəb yaratdığı dilçi-alimlər tərəfindən tədqiq edilmişdir.

Sintaktik paralelizm (KDQ-nin materialları üzrə (Абдуллайев К.М. Синтактический паралелизм (на материале огузского памйатника "Книга мойего деде Коркута"). Дис., канд.филол.наук. М., 1976;).

Kamal Abdulla bu və ya digər planda sintaktik sinonimliyi tədqiq edir və bədii əsərlərində də bu hadisə nəticəsində meydana gələn vahidlərdən məqsədli şəkildə istifadə edir. Sintaktik sinonimlər Kamal Abdullanın bədii əsərlərinin dilini, ekspressivliyini zənginləşdirən sintaktik ifadə vasitələri kimi çıxış edir.

Kamal Abdullanın sintaktik düşüncəsində müəllif intensiyası (niyyəti və məqsədi) aydın sezilir. Bir az dərketmə çətin olsa da, mətnaltı fikirlər onun "sintaksis ustası" olmasını təsdiqləyir. Sintaktik qəliblərdə xüsusi intensivlik, qeyri-adi sintaktik quruluşda oyunlar, çevrilmələr, fərqli sintaktik struktur- kompozisyon-üslubi cəhətlər, fikir dominantı, ekspressiv-üslubi funksiyaların önəmi, üslubi məqamların bolluğu və s. bunu deməyə əsas verir.

Potensial MSB (mürəkkəb sintaktik bütövlər) dilin invariant matrisasıdır.

MSB-lər mətndə bütövlükdə konsentrallaşır.

Kamal Abdullanın "nəzəri sintaksis"ə dair kitabları haqqında təhlil verən mütəxəssislər bunu Azərbaycan dili sintaksisinin tədqiqi sahəsində yeni mərhələ (prof. Q.Kazımov) saymaqda haqlıdırlar.

Türkoloji sintaksisin tədqiqi sahəsində K.Abdullanın xidmətləri böyükdür. 80-ci illərdə "Sovetskaya Türkologiya" jurnalında "Türk dillərində cümlənin quruluşu və türk dilləri sintaksisin aktual problemləri" mövzusunda keçirilən diskussiyada X.Q.Niqmatov, V.K.Banaru, N.M.Maxmudov, D.A.Maxmudova, A.Nurmanov kimi alimlərlə birgə Kamal Abdulla türkoloji dilçiliyin sintaksis məsələlərini həll edirdilər. O zaman Kamal müəllimin sözü aparıcı, ötücü idi.

Bu gün universitetlərdə Kamal Abdullanın sintaksisi tədris olunur. Onun bu sahədə yazmış olduğu dərslik müəllim-tələbə heyətini razı salır.

"Kitabi-Dədə Qorqud Ensiklopediyası"nda Kamal Abdullanın dilçiliyin müəyyən problemləri ilə (söz, yazı, paralelizm, assonans, avankulat, arxetip və s.) bağlı yığcam fikirləri yeni baxış müstəvisində qələmə alınmışdır.

Kamal Abdullanın sintaktik proseslərdə aktiv iştirakı bir də onun yazdığı, müsahibə verdiyi yazıların başlıqlarının "qəribəliyi"dir. Qəribəlik o mənada ki, demək olar, heç bir kəs yazı başlığını onun kimi qura bilmir. Baxın: Müasirlik tarixiliyin üzərində dayananda; Mən bunları hələ keç kimə danışmamışam; Sənət əsəri sirrini əbədi saxlamaqla gözəldi; Bizim vaxt heç vaxt gəlməyəcək; Olacağın olmasına nə var ki...; Mədəniyyətimizin təbliği yenidən qurulmalıdır; Demokratiyanın gücü və gücün demokratiyası və s.

K.Abdullanın yenilikləri cümlənin başlıca xüsusiyyətlərindən biri olan predikativliyin inkişaf yolunu 3 mərhələ üzrə şərh etməsindədir. Birinci mərhələni ən qədim pillə adlandırmaq olar. Bu pillə ilə bağlı alimin fikri belədir: "Hər bir nitq elementi predikativlik imkanlarına malikdir, cümlə eyni gücə malik predikativ nöqtələrlə xarakterizə olunur. Həmin dövr müəllif tərəfindən "bütöv predikativ struktur" adlandırılır. Predikativliyin 2-ci dövründə cümlə yavaş-yavaş, yeni tədricən "tam predikativ strukturu"nu zəifləməyə başlayır, əvvəlki əlamətdən əsər qalmır, kvazi (yalançı, zəif) predikativ struktura keçid, sıçrayış baş verir.

Üçüncü pillədə predikativlik xüsusiyyətini yalnız cümlənin son sərhədində qoruyaraq monopredikativ struktura keçid baş vermiş, yeni predikativlik keyfiyyəti yalnız bir həddə qalmışdır. Bəzi türk dillərində xəbərdə şəxs sonluğu işlənməsə də, bizim dilimizdə həmin forma şəkilçi ilə möhürlənmişdir.

Bakı Dilçilik Məktəbində Kamal Abdullanın sintaksislə, MSB ilə bağlı çıxışları, məruzələrinin əhəmiyyəti orasında idi ki, qulaq asan tələbə və magistrlər, doktorantlar hələ öyrənilməmiş mətn sintaksis problemlərini mövzu kimi işləyir. O, mürəkkəb sintaktik bütövləri semantik-qrammatik obyekt kimi təhlil etməyə çalışmış və istəyinə nail olmuşdur.

O, linqvososial tədqiqatlarda da öz bilik və müşahidələrini sınaqdan çıxarmışdır. "Kitabi-Dədə Qorqud"un poetik dilindən bəhs olunan yazılarında bu istiqamətin aparıcı olduğunu görmək olur.

Müşahidələrimiz göstərir ki, Kamal Abdulladan sitat gətirmə həddən artıq çoxdur. Bu onu göstərir ki, Kamal Abdulla sitatları növbəti tədqiqatlarda yarayır, yol göstərir, yazılan mətnləri "ətə-qana gətirir".

Mətn dilçiliyi, mətn sintaksisi sahəsində Kamal Abdullanın yetirmələrinin sayı indi artmaqdadır. Mətnin çoxaspektli tərəfləri onun zehni təfəkkürünün tələbə və doktorantları ilə bölünərək yeni-yeni dissertasiyaların yazılmasını sürətləndirir.

Kamal Abdullanın sintaktik düşüncəsində yeni yanaşmalar ellipsi, parselyasiya, qoşulma, determinan və s. hadisələrin sintaktik-üslubi keyfiyyətlərini üzə çıxarır.

Kamal Abdullanın bu gün türklərlə, Türkiyə türkcəsi ilə siyasi-iqtisadi, mədəni-elmi əlaqələri möhkəm təməl üzərində qurulub. Bu münasibətlərin möhkəm özül üzərində qurulmasında onun rəhbərliyi ilə çap olunan "Türkologiya" jurnalının da rolunu xüsusi qeyd etmək olar.

Atılan inamlı addımlar türk dünyasının xoşbəxt sabahından xəbər verir. "Türkologiya" jurnalı türk xalqlarının bir-birini anlamağın sevincini yaşadır. Mahmud Kaşğarinin sözləri ilə ərz eləsə, "Türkologiya" türkün ürəyinə girmək üçün onunla öz dilində danışır.

Böyük türkoloq, dilçi alim, akademik Kamal Abdullanın zəngin və mənalı fikirləri arasında diqqəti cəlb edən bir "dua"sı var: "Gördüyüm işlərin hamısını harmonik bir bütövlük sayıram".

Həqiqətən də, Kamal müəllimin gördüyü işlərin miqyası çoxdur. Bunlar bütöv bir sistemdir.

*Akademik* **Möhsün NAĞISOYLU**
*Professor* **İsmayıl KAZIMOV**